

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 103 (21.513)

*7 iyun 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Almaniya Federativ Respublikasına işgüzar səfərə gedib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 6-da Berlində Alman-Azərbaycan Forumunun idarə heyətinin sədri Hans-Eberhard Şlayer və qurumun üzvləri ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Almaniya arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev Alman-Azərbaycan Forumunun idarə heyətinin üzvlərini aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda cəbhə xəttində törətdiyi təxribatlar barədə məlumatlandırıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı danışıqların vəziyyəti ilə bağlı Alman-Azərbaycan Forumunun idarə heyətinin üzvlərinə məlumat verib.

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib



***İyunun 6-da Naxçıvan Dövlət Texniki Kollecində Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib. Məşğələni giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açıb.***

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev "Heydər Əliyev: Qayıdışdan-Qurtuluşa" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan xalqı və dövlətinin tarix səhnəsində özünəməxsus yer tutmasında, həqiqi müstəqilliyini əldə edərək qoruyub saxlamasında xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri olub. Ulu öndər Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb.

Qeyd olunub ki, Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində kompleks problemlər və kataklizmlərlə üzləşib. Kəskin ictimai-siyasi situasiya Azərbaycanın bir dövlət kimi varlığını sual altına alıb, müstəqilliyin itirilməsi təhlükəsi daha da artıb və bu vəziyyət 1993-cü ilin iyun ayında – ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışınadək davam edib.

Diqqətə çatdırılıb ki, dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyulub. İyunun 15-i müstəqillik tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olub. Ümummilli liderimizin müdrik xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, xalq cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtulub. Məhz ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkə daxilində separatçı fəaliyyətlərə son qoyulub, vətəndaş müharibəsinin qarşısı alınıb, sabitlik təmin olunub.

Emin Şıxəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük tarixi xidmətlərindən biri də ölkəmizdə uğurlu dövlət quruculuğu prosesinin əsasını qoymasıdır. Qeyd olunub ki, təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bunun ən bariz nümunəsidir.

Vurğulanıb ki, bu gün müstəqil Azərbaycan dövlətinin ciddi uğurlara imza atması dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olub. Bu istiqamətdə atılan addımların nəticəsidir ki, Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası indi özünün hərtərəfli inkişaf və tərəqqi dövrünü yaşayır. Görülən işlər bir daha Heydər Əliyev siyasi yolunun alternativsizliyini təsdiq edir.

Sonda "Milli Qurtuluş Günü tarixinin şanlı səhifələri" adlı film nümayiş etdirilib.

## Ulu öndər Heydər Əliyev və Azərbaycanda multikulturalizm



***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə "Ulu öndər Heydər Əliyev və Azərbaycanda multikulturalizm" mövzusunda tədbir keçirilib.***

Tədbirdə Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmovun "Multikulturalizm və onun silahlı qüvvələrdə əhəmiyyəti", Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənlinin "Azərbaycan cəmiyyətində multikulturalizmin psixoloji əsasları", Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin "Multikulturalizmdə çoxmədəniyyətlilik" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, əsrlərdir, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək multikulturalizm ənənələrinin formalaşmasına mühüm töhfələr verib. Ölkə başçısı cənab İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var. Azərbaycan əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb, bununla bağlı dərin tarixi baza formalaşdırıb. Ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmayıb və bu proses indi də uğurla davam etdirilir. Azərbaycan cəmiyyətindəki dözümlülük ölkədə nadir tolerantlıq mühiti yaradıb və indi bu, bir nümunə kimi beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri siyasi və sosial şərait mövcuddur. Multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Bildirilib ki, milli həmrəyliyi, bütövlüyü, birliyi təmin edən, milli təəssübkeşlik, vətənpərvərlik hisslərini daha da gücləndirən ulu öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi bu gün silahlı qüvvələrdə də prioritetdir və bu istiqamətdə ardıcıl, məqsədyönlü iş aparılır. Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək onların milli istinad mənbəyinə çevrilib. Dahi rəhbərin Azərbaycançılıq məfkurəsi bu gün də xalqımızı və dövlətimizi daha xoşbəxt gələcəyə aparır. Bu məfkurə əsasında milli-mənəvi dəyərlərimiz qorunur. Tolerantlıq bu gün Azərbaycan xalqının həyat tərzinə çevrilib. Milli-mənəvi dəyərlərə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan dini dəyərlərə münasibətdə respublikamız dünya ölkələri üçün örnəkdir.

Məruzələrdən sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nəriman Nərimanovun "Nadanlıq" pyesi əsasında hazırlanmış "Nadanlıq və ya qəfil telefon zəngi" tamaşası nümayiş etdirilib.

## Muzeyləri ziyarətlər davam etdirilir





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə muxtar respublikada mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif idarə, müəssisə və təşkilatların əməkdaşları muzeylərə gedir, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olurlar.

İyunun 4-də də muzeylər ziyarət olunub. Həmin gün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar, Səhiyyə nazirliklərinin kollektivləri Heydər Əliyev Muzeyini, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Nəqliyyat nazirliklərinin kollektivləri Dövlət Bayrağı Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Fövqəladə Hallar, Ədliyyə nazirliklərinin və Dövlət Gömrük Komitəsinin əməkdaşları Ədəbiyyat Muzeyini, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent, Ailə, Qadın və Uşaq Problemləri, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin əməkdaşları Bəhruz Kəngərlinin ev-muzeyində, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzeti redaksiyasının, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Statistika Komitəsinin əməkdaşları Xatirə Muzeyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində olublar.

Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Dini Qurumlarla İş üzrə İdarəsinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyini, Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsi və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin kollektivləri isə Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət ediblər.

Həmin gün rayonlarda fəaliyyət göstərən muzeylər də ziyarət olunub.

**Xəbərlər şöbəsi**

*Bu xəbəri çoxdan, 2009-cu ildə eşitmişdik. Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdu. Təbii ki, bu xəbər hamımızı sevindirmişdi. Çünki bu, doğma Naxçıvanımızı dünyaya daha yaxşı tanıtmaq üçün yaxşı fürsət kimi qiymətləndirilir.*

# Naxçıvan şəhəri
## 2018-ci il üçün İslam mədəniyyətinin
## paytaxtı olmağa hazırlaşır



Bu günlərdə isə ölkə başçısının sərəncamı ilə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradıldı. Həmin sərəncamda deyilir: *"Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin maddi-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".*

Bəs Naxçıvan buna hazırdırmı? Min illərin o tayından adlayıb gələn, bütün Şərqin, Asiyanın, Afrikanın sosial həyatına ciddi təsir edən "İslam mədəniyyəti" ifadəsi, sözün həqiqi mənasında, Naxçıvanda öz təsdiqini tapa biləcəkmi?

Qısa arayış: İslam mədəniyyətinin paytaxtı ilk dəfə 2001-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin birinci konfransında 30 dövlət tərəfindən qəbul edilən qərarla 2005-ci il üçün müqəddəs Məkkə şəhəri elan edilib. Qərara görə, sonrakı illər ərəb ölkələrində, Asiya və Afrikada hər il bir şəhər bu statusu qazanır. Bunun üçün həmin şəhərin özünəməxsus qədim tarixi, islami və digər dünyəvi mədəniyyəti, arxeologiyası, infrastrukturu olmalıdır. İlk dəfə Azərbaycanda 2009-cu ildə Bakı şəhəri bu ada layiq görülüb. Elə həmin il Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında yekdilliklə Naxçıvan 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilib.

Əslində, "İslam" və "mədəniyyət" sözləri tarixən Naxçıvanda öz əksini tapan bir məfhumdur. Əgər Nuh Peyğəmbər Ordubad dağlarının zirvəsində – Gəmiqayada öz əfsanəvi gəmisindən enərək Naxçıvana gəlibsə və buranın məşhur duz mədənlərində bu qida məhsulunun istehsalı ilə məşğul olubsa, yadellilərin hücumunu dəf etmək üçün yerli xalq qalalar və qala-şəhərlər yaradıbsa, burada istehsal edilən maddi-mədəniyyət nümunələri qonşu sivilizasiyalara gedib çatıbsa, bu, artıq Naxçıvanda mədəniyyətin mövcudluğu deməkdir. İslam dini VII əsrdə yaranıb. Ancaq Naxçıvan mədəniyyəti daha qədim tarixə malikdir. O da faktdır ki, məhz İslam qəbul ediləndən sonra bütün Şərqdə, o cümlədən Azərbaycanda da yeni bir mədəniyyət yarandı. Hətta bəzi ölkələrdə İslam öz təsiri ilə yerli mədəniyyəti sıxışdırıb aradan çıxara da bildi. Amma Türk dünyasında mədəniyyətin kökündə xalqın inanclar və inam sistemi təktanrılıqla bağlı olduğuna görə, əksinə, İslam mədəniyyəti ilə yerli mədəniyyət qarışaraq tam yeni, modern bir yaşam tərzi ortaya çıxardı.

Naxçıvanın qədim tarixinə baxanda istənilən səviyyədə dini münasibətləri görmək mümkündür. Bu dini yanaşmanın kökündə sırf milli, insani əxlaq prinsipləri də dayanırdı. Naxçıvanda mövcud olan Nuhla bağlı müqəddəs yerlər, onun məzarüstü türbəsi hələ erkən orta əsrlərdə burdakı mədəniyyətin yüksək inkişafının təzahürü idi. Naxçıvan ərazisindəki müqəddəs məkanlar, müqəddəs "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf mağarası İslam mədəniyyətinin ən yaxşı nümunəsidir. Çünki xalq min illərdir, bu yeri sevir, qoruyur, onun abadlığı, təmizliyi üçün çalışır. Bu gün isə Əshabi-Kəhf dünya müsəlmanlarının və Naxçıvana gələn istənilən qonağın ziyarət etdiyi məkanlardan birinə çevrilib.

Naxçıvan Türk dünyasının qədim ənənələrini özündə yaşatmaqla bərabər, İslam dininin də dəyərlərini paralel şəkildə, milliləşdirərək inkişaf etdirir. İlk dəfə Şərqdə qadın şərəfinə ucaldılan abidə – Möminə xatın türbəsi həm də İslamın ən mühüm amillərindən biri olan qadına – anaya hörmətin nümunəsi deyilmi? Nuhun məzarüstü türbəsinə 1700 ildən sonra qayğı göstərilərək sahib çıxılması, onun yenidən qurulması bu nümunəni tamamlayan və isbata ehtiyacı olmayan faktdır.

Din xadimlərinin, müqəddəs sayılan övliyaların məzarları üzərində tikilən türbələr təkcə saygı və hörmət deyil, həm də İslam mədəniyyətinə verilən yeni töhfələr idi. Naxçıvan şəhərində XII əsrdə inşa edilən Yusif Küseyiroğlu türbəsi, Qarabağlar kəndində XIII-XIV əsrlərdə ucaldılan Quti xatın türbəsi həm də dini məqbərə kimi qorunur.

İslam dininin qarşıya qoyduğu əsas vəzifələrdən sayılan "təmizlik imandandır" ifadəsi sanki Naxçıvan şəhərinin, muxtar respublikanın rayon mərkəzlərinin bugünkü vəziyyətinin əyani göstəricisidir. Təmiz şəhər, abad küçələr, səliqəli yaşayış binaları – bu, İslamın təbliğ etdiyi mənəviyyat deyilmi? Bu prinsip isə artıq Naxçıvanda adi həyat tərzinə çevrilib.

İslam halallığı sevir. Naxçıvanda isə min illərdir ki, qorunan bir halallıq prinsipi var. İstər qidalarımızda, istər davranışlarımızda, istərsə də münasibətlərimizdə hər kəsin özündən asılı olmayaraq qoruyub saxlamağa çalışdığı, bu ruhda tərbiyə olunan sağlam bir cəmiyyət var. Son illər oğurluğun, cinayətin, neqativ halların aradan qaldırılması və dövlət səviyyəsində bu sahədə aparılan işlər Naxçıvanı İslam mədəniyyətinin nəinki paytaxtı, ən yaxşı nümunəsi kimi təqdim etməyə əsas verir.

Naxçıvanda tarixən mövcud olan təmizlik, milli dəyərlərə verilən qiymət, ən əsası dövlətçilik prinsipləri, bir-birinə inam hətta Peyğəmbərimiz Məhəmməd əleyhissalamın nəslindən olan insanların da diqqətini cəlb edib. Ona görə də buranı özlərinə məskən seçən bu nəslin nümayəndələri elə Naxçıvan torpağında da dəfn ediliblər. İndi tarixi və dini abidə kimi qorunan, son illər bərpa olunaraq abadlaşdırılan üç İmamzadə kompleksi buna ən yaxşı nümunədir.

Bəzən insanlar Tanrı tərəfindən Naxçıvanın həmişə qorunduğunu deyirlər. Əslində, bu dini və milli dəyərlərin qorunduğu məkanı, təbii ki, Ulu Tanrı da qoruyur.

Naxçıvanın qonaqpərvərliyi xalqımızın minillik ənənəsinin ayrılmaz tərkib hissəsidir. "Allaha da qurban olum, göndərdiyi qonağa da", – deyib gecənin yarısı öz qapımızı tanımadığımız, amma "Allah qonağıyam" dediyi üçün üzünə açdığımız adamı necə ehtiramla qarşıladığımızı hər bir yerli sakin, bu yurdun qonaqları yaxşı bilirlər. Vaxtilə tikilən məscidlər həm də yoldan keçən, kiminsə evinin qapısını döyməyə utanan yolçuların gecələdiyi yer olmayıbmı? Son illər abadlaşan, yeniləşən şəhərimizdə inşa olunan turizm obyektləri, mehmanxanalar məhz bu ənənənin davamıdır. İslam mədəniyyətinin paytaxtı həm də 2018-ci ildə muxtar respublikaya gələn minlərlə qonaq deməkdir. Onların yüksək səviyyədə, əsl azərbaycanlısayağı qarşılanıb yola salınması üçün indi Naxçıvanda lazımi şərait yaradılıb. Bu gün Naxçıvan şəhərində beşulduzlu otellər, müasir xidmət müəssisələri fəaliyyət göstərir. Rahat yollar, abad qəsəbələr, yaraşıqlı kəndlər, insanların rahatlığı, dolanışığı üçün görülən işlər məhz Tanrının göndərdiyi sonuncu dinin təməl prinsiplərindəndir.

Yeni yaradılan Təşkilat Komitəsinin üzvü, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayevin dediyi kimi, bu gün Naxçıvanda 217 məscid, 26 dini ziyarətgah var. Son 20 ildə nəinki Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində də yeni məscidlər tikilib, mövcud məscidlər təmir olunub, abadlaşdırılıb. Dini ziyarətgahlar – imamzadələr, Əshabi-Kəhf ziyarətgahı bu gün öz abadlığına görə yalnız İslamın yarandığı müqəddəs şəhərlərdəki ziyarətgahlarla müqayisə oluna bilər. Naxçıvanda regionun ən böyük ibadət ocağı olacaq – 2500 nəfərin eyni vaxtda namaz qıla biləcəyi məscidin inşası davam etdirilir. Demək olar ki, 2018-ci ilə hazırıq. Bunlar heç də kimə və nəyə görə isə edilməyib. Sadəcə, hər sahədə olduğu kimi, dini və mənəvi dəyərlərə, mədəniyyətə də Naxçıvanda böyük diqqət və qayğı göstərilir.

**Səməd CANBAXŞIYEV**

---

*Türkiyənin görkəmli hərb və dövlət xadimi Kazım Qarabəkirin qızı, qardaş ölkədə fəaliyyət göstərən Kazım Qarabəkir Paşa Vəqfinin sədri Timsal Qarabəkir iyunun 2-də Naxçıvan Muxtar Respublikasına gəlib. Səfər çərçivəsində o, muxtar respublikada keçirilən bir sıra tədbirlərdə iştirak edib.*

*Timsal Qarabəkirlə Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdən sonra görüşərək onunla səfərinin məqsədi və Naxçıvan təəssüratları barədə söhbət etdik. Naxçıvanın Türk dünyası üçün əhəmiyyətini vurğulayan Timsal xanım dedi:*

# Timsal Qarabəkir: "Naxçıvan həmişə milli şüurun yaşadıldığı, milli birliyin daim təmin olunduğu bir türk yurdudur"



– Qədim Naxçıvan Türk dünyasının müqəddəs məkanlarından biridir. Təəssüflər olsun ki, ötən əsrin əvvəllərində Anadoluda yaşanmış faciələrin eynisi həmin dövrlərdə Naxçıvanın ərazisində də baş verib. Ermənilər bu bölgədə də kütləvi qətllər törədiblər, türk yurdunu işğal etməyə çalışıblar. Ancaq unudublar ki, Naxçıvanın igid oğulları var, bu yurdu öz doğma vətəni kimi sevən türkiyəli qardaşları var. Məhz qardaşlıq duyğularından güc alan Kazım Qarabəkir Paşa Şərqi Anadolunu düşmən işğalından azad etdikdən sonra Naxçıvanı da xilas etmək üçün bura gəlib, böyük xidmətlər göstərib. Ona görə də mən Naxçıvana hər gəlişimdə bu diyarın düşməndən təmizlənməsində xidmətləri olmuş hər bir vətən övladını, o cümlədən Kazım Qarabəkir Paşanı bir daha ehtiramla yad edirəm.

Mən burada Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Ərtoğrol Cavidin xatirəsinə həsr edilmiş "Yaradan ömrün faciəvi sonluğu" adlı rəsm sərgisinin açılışında və Naxçıvan Dövlət Universitetində "Əsrin sınaqlarında ədib və paşa – Hüseyn Cavid və Kazım Qarabəkir" mövzusunda keçirilən konfransda, "Ərtoğrol Cavid yaradıcılığı" adlı ədəbi-bədii tədbirdə iştirak etdim. Naxçıvanlı gənclərin qədim tariximizə, keçmişimizə olan marağı məni çox sevindirdi. Muxtar respublikada gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi çox yüksək səviyyədə təşkil olunub. Qısa ömür yaşayan, lakin çox böyük əsərləri bizə yadigar qoyan Ərtoğrol Cavidin xatirəsini anarkən istedadlı gənclərin çıxışları, fəallığı məni heyran etdi.

Mənim fikrimcə, Naxçıvan həmişə milli şüurun yaşadıldığı, milli birliyin daim təmin olunduğu bir türk yurdudur. Naxçıvan şəhərində Kazım Qarabəkir Paşanın adı verilən möhtəşəm bir məscid istifadəyə verildiyi zaman mən də burada keçirilən tədbirdə iştirak edirdim. Türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də həmin tədbirdə iştirak edirdi. Burada mən böyük şəxsiyyətin müəllimi Lətif Hüseynzadə ilə tanış olmuşdum. Onunla söhbət zamanı anladım ki, yalnız belə yüksək səviyyəli, vətənpərvər müəllimlər böyük liderlər yetişdirmək əzmindədirlər. Vətənini, millətini, xalqını sevən fədakar insanlar...

Biz həmin məsciddə də olduq, Kazım Qarabəkirin ruhuna dualar oxuduq. Doğrusu, çox kövrəldim. Ancaq insanların isti münasibəti, sevgisi mənə dəstək oldu, bununla təsəlli tapdım.

Bizim məqsədimiz budur ki, gərək heç birimiz keçmişi unutmayaq, unutdurmayaq. Çünki keçmişini bilməyənin gələcəyi də olmaz. Keçmişə bir nəzər salaq. Görürük ki, Azərbaycan və Türkiyə xalqları həmişə birlikdə olublar. Onların kədəri də, sevinci də bir olub. 1915-ci ildə Çanaqqala savaşında Azərbaycandan olan yüzlərlə könüllü Türkiyə uğrunda canlarını fəda ediblər. Bir müddət sonra isə Kazım Qarabəkirin rəhbərliyi ilə yüzlərlə türk əsgəri Naxçıvan uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstəriblər. 1918-ci il sentyabr ayının 15-də Türkiyə -Azərbaycan qardaşlığı, birliyi nəticəsində paytaxt Bakı şəhəri erməni daşnaklarından azad edilib. Bu məqamda mən Mustafa Kamal Atatürkün Nəriman Nərimanova borc pulun ödəniləcəyi barədə dediyi sözləri və Nəriman Nərimanovun ona cavabını yada salmaq istəyirəm. O deyib ki, qardaşın qardaşa borcu olmaz. Bəli, Türkiyə ilə Azərbaycan qardaşlığı da məhz belədir. Biz birbirimiz üçün əlimizdən nə gəlirsə, onu edirik. Gələcəkdə də qardaşlıq bağlarımız daha güclənərək davam edəcəkdir. Biz bir millətin iki dövlətiyik. Bir-birimizə candan bağlıyıq. Naxçıvan isə Türk dünyasında xüsusi yerə malikdir. Türkiyə ilə Türk dünyasının yeganə torpaq sərhədi məhz Naxçıvandadır.

Mən Naxçıvana ilk dəfə 1990-cı illərdə gəlmişdim. Həmin vaxt burada vəziyyət o qədər də ürəkaçan deyildi. Blokadanın yaratdığı çətinliklər hər addımda özünü hiss etdirirdi. Bu gün isə tamamilə başqa bir mənzərənin şahidiyəm. Hər tərəfdə abadlıq, gül-çiçək, yaşıllıq, gözəl və yaraşıqlı binalar, yüksək infrastruktur göz oxşayır.

**Rauf ƏLİYEV**

## Naxçıvanda Ərtoğrol Cavidin xatirəsinə həsr olunmuş tədbirlər keçirilib





***İyunun 3-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Ərtoğrol Cavidin xatirəsinə həsr edilmiş "Yaradan ömrün faciəvi sonluğu" adlı rəsm sərgisinin açılışı olub.***

Sərginin açılış mərasimində çıxış edən muxtar respublikanın Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva Ərtoğrol Cavidin keşməkeşli həyat və yaradıcılığından söhbət açıb.

Qeyd olunub ki, həyat çox gənc yaşlarından Ərtoğrolu çətin sınaqlar qarşısında qoyub. Buna baxmayaraq o, bu sınaqlardan şərəflə, ləyaqətlə çıxıb. Onun yaradıcılığı ilə tanış olanda Ərtoğrolun işgüzarlığına, zəhmətkeşliyinə, maraq dairəsinin genişliyinə heyran qalmamaq mümkün deyil. O, böyük bəstəkar Üzeyir Hacıbəylinin rəhbərliyi və tövsiyəsi ilə Azərbaycan dastanlarını, folklorumuzu toplayıb, aşıq yaradıcılığını tədqiq edib, ilk dəfə aşıq musiqisini nota köçürüb.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyev həm Hüseyn Cavidin, həm də Ərtoğrol Cavidin yaradıcılığına böyük əhəmiyyət verib. 1937-ci il repressiyasının qurbanı olan, ağır sürgün həyatı yaşayan Hüseyn Cavidin nəşi dahi rəhbərin şəxsi təşəbbüsü və göstərişi ilə uzaq Sibirdən Azərbaycana gətirilib, doğulduğu Naxçıvan torpağında dəfn olunub, məzarı üzərində möhtəşəm məqbərə ucaldılıb. Hüseyn Cavidin cənazəsinin qürbətdən, həyat yoldaşı Müşkünaz xanımın nəşinin Bakıdan, oğlu Ərtoğrolun nəşinin isə Naxçıvan şəhər qəbiristanlığından gətirilib Hüseyn Cavid məqbərəsində bir yerdə dəfn olunması ümummilli liderimizin tarixi xidmətlərindəndir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri qeyd edib ki, bugünkü sərgidə Ərtoğrol Cavidin qrafika üsulu ilə çəkdiyi 14 əsəri, naxçıvanlı rəssamların Hüseyn Cavidə həsr olunmuş və yağlı boya ilə işlənmiş 21 əsəri nümayiş etdirilir.

"Turan Cavid Qadın Mərkəzi" İctimai Birliyinin sədri Sevda Cəfərova bildirib ki, Cavidlər nəslinin nümayəndələrinin keçdiyi çətin, məşəqqətli, lakin şərəfli ömür yolları yeni nəsillərimiz üçün nümunədir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, gənclərimizin Azərbaycan tarixini dərindən öyrənməsi, görkəmli şəxsiyyətlərimizi yaxından tanıması onlarda milli qürur hissinin inkişafına müsbət təsir göstərməklə yanaşı, həm də milli birliyin formalaşmasına güclü təkan verir. Bu baxımdan Ərtoğrol Cavidin həyatı və qısa yaradıcılıq yolu hər bir gənc üçün mayak rolunu oynayır.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimli Hüseyn Cavidin və Ərtoğrol Cavidin məşəqqətli ömür yolundan və bütün zamanlar üçün aktuallığını qoruyub saxlayan əsərlərinin ideyaməzmun xüsusiyyətlərindən, eləcə də onlara göstərilən dövlət qayğısından və xalq sevgisindən söhbət açıb.

Hüseyn Həşimli diqqətə çatdırıb ki, gənc Ərtoğrol qələmini dramaturgiya və poeziya sahəsində də sınayıb, uğurlu əsərlər yaradıb. 200-dən çox el havalarını nota köçürüb, aşıqlarımızın ifasında söylənən dastan və nağılların mətnlərini yazıya alıb, öz yaradıcılığında onlardan qidalanıb, gözəl əsərlər yazıb. İlk böyük əsəri fortepiano üçün yazılmış "Doqquz variasiya"dır. Böyük Vətən müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və marşlar yazıb, "Şeyx Sənan", "Məhsəti" operaları, bir sıra kamera və instrumental əsərləri yarımçıq qalıb. 1942-ci ildə ordu sıralarına çağırılıb, "xalq düşməni"nin oğlu olduğu üçün arxa cəbhədə fəhlə batalyonuna göndərilib. Ağır xəstələnərək 1943-cü ildə Naxçıvanda vəfat edib. Ərtoğrol Cavidin məzarı ölümündən 53 il sonra ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinə köçürülüb.

Tədbirdə qardaş ölkədən gələn qonaq, Türkiyənin görkəmli hərbi və dövlət xadimi Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir çıxış edərək Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında tarixi şəxsiyyətlərə verilən yüksək qiyməti alqışladığını, bundan böyük sevinc hissləri keçirdiyini bildirib. Timsal xanım qeyd edib ki, Ərtoğrol Cavid Türk dünyasının böyük şairi, Azərbaycan ədəbiyyatının klassiki Hüseyn Cavidin oğludur. Hüseyn Cavid ilə müzəffər komandan Kazım Qarabəkir arasında Naxçıvan Rüşdiyyə məktəbində yaranan dostluq münasibətləri sonralar daha da möhkəmlənib. Görkəmli sərkərdəni və dahi ədibi Azərbaycanın və Türkiyənin, o cümlədən Türk dünyasının gələcəyi ilə bağlı birgə ideyalar sıx birləşdirib. Hər iki şəxsiyyət əsrin sınaqlarına qarşı şərəflə mübarizə aparıb. Onların ən böyük arzusu xalqını və ölkəsini azad görmək olub. Bu gün onların arzuları artıq reallaşıb.

Qeyd edilib ki, bəşəriyyət tarixi çox sərkərdələr görüb. Ancaq Kazım Qarabəkirin şəxsində tamam ayrı-ayrı sənət sahiblərinə xas xüsusiyyətlər cəmləşdiyindən, o, bütün bu işlərin öhdəsindən qibtəolunacaq dərəcədə bacarıqla gələ bilib. Türk dünyası üçün Kazım Qarabəkir Paşa müharibə sənətinin, Hüseyn Cavid isə söz sənətinin zirvəsində dayanır. Ərtoğrol Cavid də atasının yolunu uğurla davam etdirib.

Timsal Qarabəkir və Sevda Cəfərova Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə xatirə plaketi və hədiyyə təqdim ediblər. Naxçıvanlı rəssam Əli Səfərli "Hüseyn Cavid" portretini Timsal Qarabəkirə hədiyyə edib.

Sonda sərgiyə baxış olub.

Sərgi iştirakçıları Abazər Qardaşbəyovun "Repressiya qurbanları", Mircəlil Seyidovun "Cavidə haqsızlıq", Telman Abdinovun "Cavid əfəndi" və digər rəsm əsərlərinə maraqla baxıblar.

* * *

*İyunun 6-da Naxçıvan Dövlət Universitetində "Ərtoğrol Cavid yaradıcılığı" adlı ədəbi-bədii mərasim keçirilib.*

Tədbiri rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq gözəl musiqi və rəsm əsərlərinin, ədəbi parçaların müəllifi olan Ərtoğrol Cavidin çoxşaxəli fəaliyyətindən danışıb, onun qəlblərdə əbədi yaşayacağını bildirib.

Bakı Musiqi Akademiyasının professoru, Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə "Ərtoğrol Cavid bəstəkar və musiqi tədqiqatçısı kimi" adlı məruzəsində bəstəkarın qeyri-adi istedadı və bacarığından söz açıb.

Bildirilib ki, dahi bəstəkar Üzeyir Hacıbəyovun sevimli tələbəsi olan Ərtoğrolun ömrü qısa olsa da, həyatda silinməz iz qoyub. Cəmi 24 il ömür sürməsinə baxmayaraq, o, sənətə, ədəbiyyata, musiqiyə bağlı bir gənc olub, 50-dən çox gözəl şeirin, eləcə də ecazkar musiqi əsərlərinin müəllifidir. Bunlardan onun öz sevimli müəllimi Üzeyir bəyə həsr etdiyi "Doqquz variasiya"sı və skripka ilə fortepiano üçün "Poema"sı diqqətəlayiqdir.

Kazım Qarabəkir Vəqfinin sədri Timsal Qarabəkir müəllim və tələbələri salamlayaraq iki dahi tarixi şəxsiyyət – Kazım Qarabəkir və Hüseyn Cavidi birləşdirən ümumi bənzərliklərdən söz açıb, onların həyat və yaradıcılıqlarının dərindən öyrənilməsinin zəruriliyini qeyd edib.

"Turan Cavid Qadın Mərkəzi" İctimai Birliyinin sədri Sevda Cəfərova "Yaradıcı ömrün faciəli sonluğu" adlı çıxışında bildirib ki, görkəmli ədib Hüseyn Cavidin ailəsində böyüyən Ərtoğrol Cavid qısa ömür yaşamasına baxmayaraq, bir-birindən bənzərsiz əsərlər yaradıb. Əsərləri Azərbaycan mədəniyyətinin dəyərli inciləri sırasına daxil olub. Yaşadığı dövrdə – ötən əsrin əvvəllərində, əsasən, rus və Avropa bəstəkarlarının əsərlərinin təbliğ olunması və öyrədilməsinə baxmayaraq, Ərtoğrol Cavid Azərbaycan xalq mahnılarının nota köçürülməsində iştirak edib, xalqımızın milli musiqi ruhuna uyğun əsərlər yazıb, milli musiqi mədəniyyətimizi yeni yaradıcılıq nümunələri ilə zənginləşdirib.

Tədbirin bədii hissəsində müəllif bəstələrindən Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin xor kollektivinin, universitetin tələbələri İlkin Abdullayevin, Məhərrəm Quliyevin, Cahangir Qurbanovun ifasında "Quşlar", "Ay nəğməsi", "Batabat yaylağı", skripka və fortepiano üçün poema, "Eşq olsun" mahnı-marşı, "Səninlə olaydım", "Kor ərəbin mahnısı", "Melodiya", "Doqquz variasiya" kimi musiqi əsərləri səsləndirilib.

Sonda Zümrüd Dadaşzadəyə və Sevda Cəfərovaya Kazım Qarabəkir Vəqfinin plaketi təqdim olunub, qonaqlarla xatirə şəkli çəkdirilib.

* * *

*İyunun 4-də Naxçıvan şəhərində yerləşən Kazım Qarabəkir Paşa məscidində bu gün muxtar respublikada qəhrəman ordu komandiri kimi xatırlanan Kazım Qarabəkir Paşanın ruhuna dualar oxunub, ehsan süfrəsi açılıb.*

Kazım Qarabəkirin qızı, Qarabəkir Vəqfinin sədri Timsal Qarabəkir mərasimdə iştirak edib. Qeyd edilib ki, Kazım Qarabəkir ötən əsrin əvvəllərində muxtar respublikanın ərazisində yerli əhaliyə qarşı amansız qətllər törədən ermənilərə qarşı döyüşən yerli dəstələrin köməyinə gələrək daşnakları darmadağın edən türk ordusuna başçılıq edib. Onun xatirəsi həmişə əziz tutulur.

***Bir neçə ildir, muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəbləri şagirdlərinin müxtəlif istirahət mərkəzlərində istirahəti təşkil olunur. Artıq bu ilin aprel ayının əvvəllərindən sınaq imtahanlarında yüksək nəticələr göstərən və aztəminatlı ailələrin uşaqlarından ibarət məktəblilərin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahəti təmin olunub. Tədbir bu ilin mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən keçirilib. İyun ayının 5-də yekunlaşan layihəyə əsasən, mərkəzin budəfəki qonaqları Kəngərli və Sədərək məktəbliləri olub.***

## Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları Kəngərli və Sədərək məktəbliləri olub



İstirahətin ilk günü Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Qəzənfər Abdullayev şagirdlərə proqram haqqında qısa məlumat verərək onlara xoş və mənalı istirahət arzulayıb. Şagirdlər əşyalarını yerləşdirdikdən sonra istirahət mərkəzinin mini-futbol meydançasında komandaların yarışı başlayıb, bilik yarışları keçirilib. Günün ikinci yarısında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Nəsrullah Musayevin çəkdiyi rəsm əsərləri şagirdlərin böyük marağına səbəb olub.

Naxçıvan Dövlət Uşaq Teatrının hazırladığı Abdulla Şaiqin "Danışan kukla" tamaşasına məktəblilər maraqla baxıblar. Quruluşçu rejissoru Nurbəniz Niftəliyeva olan səhnə əsərinin daşıdığı tərbiyəvi əhəmiyyət olduqca böyükdür. Əsər gücün, pulun, düşkün mənəviyyatın və sosial ehtiyacın canlı insanı necə kuklaya çevirdiyini göstərir.

Şagirdlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən sənədli filmə baxaraq ilk günü başa vurublar.

Kəngərli Rayon Təhsil Şöbəsinin əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar müəllimi Səməd Səmədov söhbətimizdə bildirdi ki, istirahət mərkəzinə Kəngərli rayonundan 30 şagird gəlib. Onlar çox yaxşı istirahət edirlər.

Yeni Kərki kənd tam orta məktəbinin X sinif şagirdi Zəhra Cəfərova dedi ki, buradakı istirahətindən çox razı qalıb. Onlar üçün mərkəzdə hərtərəfli şərait yaradılıb.

Sədərək rayonundan 15 şagird istirahətə gəlmişdi. Onlar arasında idmançılar çoxluq təşkil edirdi. Rəsul Yerdələnin dedikləri:

– Heydərabad qəsəbə tam orta məktəbinin XI sinif şagirdiyəm. Atletika üzrə bir çox uğurlarım var. Ən böyük arzum tanınmış idmançı olmaqdır. Əvvəlcə ali təhsil almaq istəyirəm. İmtahana az qalıb. Burada ikigünlük istirahət mənim üçün çox yaxşı oldu. Qayıtdıqdan sonra imtahanlara daha da ciddi hazırlaşacağam.

Məktəblilərdən Duyğu Eyvazova (Qabıllı kəndi), Tovuz Təmoyeva (Böyükdüz kəndi), Asif Rəhimov (Xok kəndi) və başqaları mərkəzdə yaradılmış şəraitdən, onlara göstərilən qayğıdan razılıqlarını bildirdilər və minnətdarlıq etdilər.

✍ **Sara ƏZİMOVA**

## Magistratura səviyyəsinə qəbul imtahanının ikinci mərhələsi başa çatıb

***Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası iyunun 5-də 2016/2017-ci tədris ili üçün Azərbaycan Respublikası ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci mərhələsini keçirib. İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə, 16 imtahan mərkəzində aparılıb.***



Bütün binalarda eyni vaxtda saat $13^{00}$-da başlanan imtahanda sualların cavablandırılmasına 1 saat 30 dəqiqə vaxt ayrılıb. İkinci mərhələdə bakalavrlara seçdikləri proqram üzrə 5-i açıqtipli olmaqla, 50 test tapşırığı təqdim edilib (bəzi proqramlar üzrə isə bakalavrlar yazılı imtahan veriblər). Hər düzgün cavab bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

Qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə müsabiqə şərtlərini ödəyən bakalavrların proqram seçimi 2016-cı il mayın 3-dən 10-dək aparılıb və 9061 nəfər qəbul proqramını seçərək təsdiqləyib. 5045 nəfər ali təhsil müəssisələrinin builki, 4016 nəfər isə əvvəlki illərin məzunudur. 32 bakalavr xarici ölkə vətəndaşıdır.

Naxçıvan Muxtar Respublikasında isə imtahan Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin binasında keçirilib. Qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə müsabiqə şərtlərini ödəyən 237 bakalavr imtahana buraxılıb.

İmtahan 2 imtahan rəhbəri və 20 nəzarətçinin iştirakı ilə aparılıb.

✍ **Nərgiz İSMAYILOVA**

*Din və cəmiyyət*

# On bir ayın sultanı



***Oruc Adəm Peyğəmbərdən bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş ibadətdir. Məsələn, Nuh Peyğəmbər bayram günlərindən başqa, bütün ilboyu, Davud Peyğəmbər isə günaşırı oruc tutarmış. Bu barədə "Qurani-Kərim"də "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" deyə bildirilir ("əl-Bəqərə", 183).***

### *İslam dinində oruclu*q

Oruc tutmaq müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində – Şaban ayının on üçündə bəxş edilmişdir. Ramazana bəzən "orucluq ayı" anlamına gələn "Şəhri-Sıyam" da deyirlər. Ərəb mənşəli "savm" (cəmdə işləndikdə "sıyam") kəlməsi Azərbaycan dilinə tərcümədə nəfsə hakim olmaq mənasındadır.

Ramazani-Şərif müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki "Qurani-Kərim" bu ayda nazil olmağa başlamış, Məhəmməd Peyğəmbərə bu ayda peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması "Qurani-Kərim"də belə əks olunmuşdur: "İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran ("Quran") Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar..." ("əl-Bəqərə", 185).

Allah elçisi də hədislərindən birində Ramazan orucunun faydalarından bəhs edərkən demişdir: "Kim inanaraq və mükafatını Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar".

Oruc ibadətinin həm mənəvi, həm də sağlamlıq baxımından faydaları çoxdur. Bu ibadətin fəzilətlərindən biri insanlarda mərhəmət və xeyirxahlıq hisslərini gücləndirməsidir. Orucluq həm də insana nemətlərin dəyərini öyrədir. Çünki insan sahib olduğunun dəyərini onu itirdikdən sonra bilir. Oruc tutmaqla bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ibadət insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insan orqanizmi orucluq vaxtı, bir növ, dincəlmiş olur. Müasir tibb elmi də oruc tutmağın faydalarını göstərmişdir. Oruc tutmaq insanlara səbirli və dözümlü olmağı öyrədir. Ay ərzində yemək, içmək və digər ehtiyaclardan imtina edən insan sonralar qarşısına çıxan əziyyətlərə də qatlaşa bilir.

Həddi-büluğa çatmış, ağlı yerində olan hər müsəlmana oruc tutmaq vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır (kəffarə bir gün birəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır). Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Bəzi üzrlü səbəblər vardır ki, oruc tutulmaya bilər, yaxud tutulmuş orucu pozmaq olar: xəstəlik, səfərə çıxmaq, məcburiyyət, insanı bihuş edən şiddətli aclıq, susuzluq, hamiləlik.

Orucun niyyət edilməsi zəruridir. Niyyətsiz oruc məqbul deyildir. Ramazan orucuna axşamdan obaşdanlığadək niyyət edilir (bəzi alimlərə görə, əgər unudularsa, günortayadək də niyyət etmək olar).

Obaşdanlığa (sahur) qalxıb yemək müstəhəbdir və Məhəmməd Peyğəmbər də hədislərində buna təşviq etmişdir: "Obaşdanlıqda yemək yeyin, çünki onda bərəkət vardır".

Orucunu tamamlayıb iftar vaxtına yetişən şəxs bundan sevinərək özünü xoşbəxt hiss edər. Allah elçisi isə hədislərində oruclunun iki sevinc anının olduğunu müjdələmişdir. Biri iftar vaxtı, digəri isə bu ibadətinə görə Allahdan mükafatını alacağı vaxtdır.

Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Çünki vacib olan ayı bütünlüklə oruclu keçirməkdir. Məhəmməd Peyğəmbər doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

### *Oruc tutan şəxsə hansı əməllər qadağandır?*

Hər hansı qidanı qəbul etmək, siqaret çəkmək, yaxud qatı toz və ya tüstü udmaq, qəsdən qusmaq orucu batil edər (əlbəttə, qeyri-ixtiyari olaraq və ya xəstəlik nəticəsində qusmaq istisnadır).

Bundan başqa, bədənə imalə etdirmək də orucu pozar.

Kişi, yaxud qadın oruclu ikən qüsullu olmalıdır.

Oruclu bir kəsin suda çox qalması, ağıza girən yağışı və ya dolunu istəyərək udmaq orucu pozan əməllərdəndir.

### *Orucu pozmayan əməllər*

Unudaraq yeyib-içmək orucu pozmaz. Ancaq yemək yeyən kimsə oruclu olduğunu xatırlayınca yeməyi dərhal buraxıb ağzını yaxalamalıdır. Belə ki, oruclu olduğunu yadına saldığı andan etibarən heç bir şey yeməməyə diqqət etməlidir. Oruclu olduğunu yadına saldığı anda yeməyə davam edərsə, oruc batil olur.

Məhəmməd Peyğəmbər "Oruclu olduğunu unudub yeyən-içən kimsə orucunu tamamlasın, onu Allah yedirtmiş, içirtmişdir" buyurmuşdur.

Ağız suyunu, tüpürcəyi və ya bəlğəmi udmaq, gözə dərman salmaq, qan vermək, burnundan gələn selikli qişanı udmaq, boğazına çox olmamaqla toz girmək, istəməyərək su udmaq, çox olmamaqla duş qəbul etmək, gözlərə sürmə çəkmək, dərmanı və qanı udmamaqla diş çəkdirmək, dişləri fırçalamaq, udulmamasına diqqət etməklə su ilə ağızı yayxalamaq orucu pozmayan əməllərdəndir.

### *Kimlərə oruc tutmaq vacib deyildir?*

Dörd təbəqədən olan adamlar oruc tutmaya bilərlər; onlar həm qəza orucundan, həm də kəffarədən azaddırlar:

*- həddi-büluğa çatmamış uşaqlar;*
*- psixi cəhətdən qeyri-normal şəxslər;*
*- qocalıb əldən düşmüş şəxslər;*
*- aclıq və susuzluğa heç cür tab etməyən daimi xəstələr.*

Digər dörd təbəqədən olan şəxslər də Ramazan ayında oruc tutmaya bilərlər; bunun üçün onlara kəffarə də düşmür, sadəcə olaraq, itirdikləri hər gün əvəzinə bir gün qəza orucunun tutulması onlara vacibdir:

*- hamilə qadınlar. Onlar itirdikləri hər günün əvəzində ehtiyaclılara 750 qram yemək verməli, ana olduqdan sonra isə qəza oruclarını tutmalıdırlar;*

*- körpəsinə süd verən qadın (əgər oruc tutduğu təqdirdə südünün kəsiləcəyindən qorxarsa). Onlar da hər gün üçün 750 qram ehsan etməli, südvermə müddəti bitdikdən sonra qəza orucu tutmalıdırlar;*

*- Ramazan ayında müvəqqəti xəstələnmiş şəxslərin səhhətinə oruc tutmaq təhlükə törədirsə, xəstə olduqları günlərdə orucdan azaddırlar. Əgər gələn ilin Ramazan ayına kimi sağalsalar, mütləq qəza orucu tutmalıdırlar. Əgər gələn ilə kimi sağalmasalar, qəza orucu vacib olmaz, yalnız hər gün üçün 750 qram ehsan etmələri kifayətdir;*

*- səfərdə olan şəxs vətənə dönənə kimi orucdan azaddır, amma qayıdandan sonra mütləq qəza orucu tutmalıdır (hər gün üçün bir gün hesabı ilə). Amma bəzi hallarda insan səfərdə də olsa, oruc tutmalıdır və orucu pozmağa ixtiyarı yoxdur.*

Hər kəs oruc tutduğunu unudaraq, yaxud özü istəmədən (qeyri-iradi) orucu pozan əməli yerinə yetirsə, orucu yenə düzgün sayılır və öhdəsinə heç bir cərimə düşmür. Məsələn, insan körpüdən keçərkən sürüşüb çaya yıxılsa və başı suya batsa, yaxud xəstələnib qussa, oruc tutduğunu unudub su içsə orucu pozulmaz.

Qeyd olunduğu kimi, oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrlərini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da faydaları vardır. Bu faydalar məhz oruc tutulan zaman insan tərəfindən öz dərin hikməti ilə fəhm edilir.

*Əziz müsəlman bacı və qardaşlarımız! Sizi Ramazan ayının başlanması münasibətilə təbrik edirik. Allah ibadətlərinizi qəbul eləsin.*

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında təşkil edilən tədbirlərin davamı olaraq Naxçıvan Dövlət Universitetinin ərazisində "Yaşıllıqlara qulluq" aksiyası keçirilib. Aksiyanı Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu təşkil edib.***



# *"Yaşıllıqlara qulluq"* aksiyası keçirilib



Aksiyadan əvvəl Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev çıxış edərək ötən ayın son günlərindən etibarən startı verilən ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlərin əhəmiyyətindən bəhs edib, tələbə-gənclərin bu aksiyalarda fəal iştirak etdiyini vurğulayıb. Qeyd edilib ki, 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü münasibətilə təşkil edilən bu aksiyalar gənclərin maarifləndirilməsinə, onların ekoloji mədəniyyətlərinin artırılmasına xidmət etməklə bərabər, Naxçıvan şəhərində və bölgələrdə yaşıllıqların artırılmasına, ərazilərin məişət tullantılarından təmizlənməsinə, gənclərin muxtar respublikanın təbiəti haqqda ətraflı məlumat almasına səbəb olub. Həmçinin bu aksiyaların iştirakçıları diskussiyalar vasitəsilə tullantıların idarə olunması sahəsində əsas anlayışlar, tullantıların növləri, onların idarə olunması prosesi və zərərsizləşdirilməsi üsulları haqqında biliklərə yiyələnib, bu tədbirlərdə ekologiyaya vurulan ziyanın mümkün qədər azaldılması yolları müzakirə edilib. Belə tədbirlər bundan sonra da davam etdiriləcək.

Sonra aksiyaya start verilib. Aksiyada fəal iştirak edən tələbələr universitet şəhərciyinin ərazisindəki yaşıllıqlara qulluq göstərib, ətrafı alaq otlarından təmizləyib, arxları səliqə-sahmana salıblar. Bundan başqa, gənclər ərazini plastik qablardan, kağız, karton parçalarından, boş sellofan torbalardan və digər məişət tullantılarından təmizləyiblər. Toplanan məişət tullantıları tonqal qalanaraq yandırılıb. Ətraf mühitin mühafizəsi ilə bağlı aksiya iştirakçılarının muxtar respublika əhalisinə müraciəti qəbul edilib. Müraciətdə deyilir:

– Ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması istiqamətində Naxçıvan Muxtar Respublikasında mühüm işlər görülür, yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə xüsusi diqqət yetirilir, mühafizə olunan təbiət obyektləri yaradılır. Muxtar respublikada təbiəti mühafizə tədbirlərinin məqsədyönlülüyü və ardıcıllığı fauna ehtiyatlarının artmasına, ekoloji tarazlığın qorunmasına müsbət təsir göstərmişdir. Təbiətin qorunmasında, yeni yaşıllıq zolaqlarına qulluq göstərilməsində imeciliklərin mühüm əhəmiyyəti vardır. Bunun nəticəsidir ki, muxtar respublika ərazisində son 20 ildə 14 min hektardan çox yaşıllıq zolaqları, meyvə bağları salınmışdır. Nəticədə, bu gün muxtar respublikanın yaşıllıqlarla örtülü sahəsi ötən əsrin 90-cı illəri ilə müqayisədə 10 dəfə artmışdır. Bu da əlverişli ekoloji mühitin formalaşmasına şərait yaratmışdır. Muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafı həm yerli sakinlərin, həm də muxtar respublikaya gələn turistlərin istirahətləri, gəzintiləri üçün əlverişli şərait yaratmışdır. Bütün bu yaradılan şərait, abad, təmiz mühitin qurulması təbii ki, muxtar respublika sakinlərinin sağlamlığı üçündür.

Hörmətli muxtar respublika sakinləri!

Təbiəti mühafizə sahəsində görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı hər birimizdən təbiətə, torpağa, vətənə qayğı və sevgi ilə yanaşmağı tələb edir. Vətənimizin zəngin yeraltı və yerüstü sərvətlərini qorumalı, gələcəyimizin təminatçısı kimi təbiətimizə sahib çıxmalı, onu zərərli tullantılardan, çirklənmədən mühafizə etməli, ətraf mühiti çirkləndirənlərə qarşı daha mübariz olmalıyıq.

Ətraf mühitin çirklənməsi havanın, suyun, qidanın təmizliyi üçün təhlükəlidir. Bu isə birbaşa insan sağlamlığına ziyandır. Ətraf mühitdən istifadə etmək hər bir vətəndaşın hüququ olduğu kimi, onun qorunması da hər birimizin vətəndaşlıq borcudur.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında keçirilən aksiyalar çərçivəsində gənclər Batabat yaylağının fauna və flora aləmi, təbiət abidələri ilə tanış olublar, ərazinin təbiət gözəllikləri olan "Zorbulaq", "Üzən ada" kimi təbiət əraziləri haqqında məlumatlandırılıblar. Bundan başqa, gənclərin Ordubad Milli Parkına maarifləndirici ekskursiyası təşkil edilib. Kəngərli, Şərur və Sədərək rayonlarında məktəblilərin iştirakı ilə maarifləndirici tədbir və gülləkmə aksiyası, Uzunoba Su Anbarı ətrafında "Hərəmiz bir ağac əkək" aksiyası keçirilib. Bu tədbirlərin davamı olaraq "Naxçıvan" Universitetində "Ətraf mühit və biz" mövzusunda gənclərin rəsm əsərlərindən ibarət sərgi-müsabiqə, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında "Ətraf mühiti necə qoruyuruq?" mövzusunda diskussiya təşkil edilib. Bu tədbirlərin sonuncusu olan "Yaşıllıqlara qulluq" aksiyası muxtar respublikanın bütün ali, orta ixtisas və ümumtəhsil müəssisələrini əhatə edib.

**Səbuhi HÜSEYNOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 443